# Baş prokuror Milli Aviasiya Akademiyasında "Rəqəmsal dövr və hüquq. Yeni çağırışlar" mövzusunda mühazirə oxuyub

**Aprelin 18-də Milli Aviasiya Akademiyasında "Rəqəmsal dövr və hüquq. Yeni çağırışlar" mövzusunda mühazirə təşkil olunub.**



Tədbirdə akademiyanın professor-müəllim heyəti, tələbələr, Baş Prokurorluğun əməkdaşları, hüquqşünaslar və media nümayəndələri iştirak ediblər.

Görüşü Milli Aviasiya Akademiyasının birinci prorektoru, professor Ədalət Səmədov açaraq akademiyanın rektoru, akademik Arif Mircəlal oğlu Paşayevin salamlarını çatdırıb və iştirakçılara uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev qeyd edib ki, 2021-ci ildən etibarən Baş Prokurorluqla Milli Aviasiya Akademiyası arasında qurulan əməkdaşlıq əlaqələri bu gün uğurla davam edir və yeni məzmunla zənginləşir.

Baş prokuror daha sonra "Rəqəmsal dövr və hüquq. Yeni çağırışlar" mövzusunda mühazirə oxuyaraq, rəqəmsallaşmanın hüquq sahəsində yaratdığı imkanlar və qarşıya çıxan çağırışlar barədə geniş məlumat verib.

Mühazirə zamanı rəqəmsallaşma ilə əlaqədar qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi məqsədilə Baş Prokurorluq tərəfindən hazırlanaraq müzakirə olunması üçün aidiyyəti üzrə göndərilmiş Qanun layihəsi təqdim edilərək, layihədə Cinayət-Prosessual Məcəlləsinə elektron formada sübutların toplanması, kompüter məlumatlarının sübut kimi qəbul edilməsi və mühafizəsi, kompüter sisteminə baxış, axtarış və götürülməsi, elektron cinayət-prosessual fəaliyyətin həyata keçirilməsi, eləcə də digər əlavə və dəyişikliklərin təklif olunduğu bildirilib.

Vurğulanıb ki, bu təkliflər müasir texnologiyaların hüquq-mühafizə fəaliyyətinə tətbiqinin genişləndirilməsi və effektivliyinin artırılmasını hədəfləyir.

Baş Prokuror həmçinin "Elektron məhkəməyədək icraat" informasiya sisteminin təsis olunması ilə bağlı təkliflə çıxış edərək bildirib ki, bu sistem cinayət-prosessual fəaliyyətin bütün mərhələlərini rəqəmsal mühitdə həyata keçirərək, istintaq və təhqiqat orqanlarının fəaliyyətinin şəffaflığını artıracaq, prosesin sürətini və səmərəliliyini yüksəldəcək, eyni zamanda cinayət prosesinin iştirakçılarına öz hüquq və vəzifələrini operativ şəkildə yerinə yetirmək imkanı yaradacaqdır.

Mühazirə zamanı həmçinin 2023-cü ilin aprel ayından tətbiq olunan "Elektron Prokurorluq" informasiya sisteminin prokurorluq orqanlarında iş proseslərinin rəqəmsallaşdırılması, idarəetmədə çevikliyin və şəffaflığın təmin olunması, vətəndaş məmnunluğunun artırılması, eləcə də cinayət işlərinin məhkəmələrə elektron formada operativ və səmərəli şəkildə göndərilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunub.

Qeyd olunanlarla yanaşı mühazirənin gedişində məhkəmədə və cinayət mühakimə icraatının gedişində süni intellektin imkanlarından istifadə olunması, bu sahədə xarici ölkələrin təcrübəsi məsələlərinə də toxunulub.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

Azərbaycan.- 2025.- 19 aprel (№77).- S.4.